# Google Authenticator

myAccess sistemində Google Authenticator-u qoşmaq və istifadə etmək üçün aşağıdakıları eləmək lazımdır. Əvvəlcə Google Authenticator-u telefonun əməliyyat sistemindən asılı olaraq Google Market və ya AppStore-da tapıb yükləmək:




Daha sonra myAccess sisteminə daxil olmaq, Şəxsi parametrləri açmaq və 2-Pilləli təsdiqləməni seçmək:




«Əlavə et» düyməsinə sıxmaq




Qarşınızda pəncərə açılacaq, burda siz yükləyəcəyiniz proqramın Android və ya iPhone İOS üçün olduğunu seçməlisiniz. Həmçinin bu səhifədə AppStore və ya Google Market-də proqramın asan tapılması üçün link var:




Bundan sonra mobil qurğunuzda Google Authenticator proqramını açmalı, "+" sıxmaq (və ya barkodu skan etmək) və kompüterin ekranında görünən barkodu skan etməlisiniz. Hər-hansı bir səbəbdən barkodu skan etmək alınmırsa, "kodu əllə daxil edin" hissəsinə sıxın, mobil qurğunuzun ekranında 6-rəqəmli kod çıxacaq, bu kodu müvafiq xanaya yazıb, "təsdiq eləmək" düyməsinə sıxın:




Google Authenticator-a qoşulmanı təsdiq eləmək üçün pəncərə açılacaq. Təsdiqləmə İnternet Banking sistemində digər əməliyyatları təsdiq elədiyimiz kimi sadə 4-rəqəmli sms kod ilə aparılır:




Aktiv etmə prosesi uğurla başa çatdıqdan sonra, səhifədə siz Google Authenticator-un aktiv edilmə tarixini, həmçinin bu funksiyanı deaktiv etmək üçün “Sil” düyməsini görə biləcəksiniz:




Google Authenticator kodu sizin mobil qurğunuzda (Android və iPhone İOS üçün) aşağıdakı kimi görünür, həmçinin burda bu şifrənin myAccess sistemi üçün olduğu və sizin sistemdə istifadəçi adınız göstərilir:







Hər kodun istifadə müddəti 30 saniyədir və avtomatik dəyişir, yalnız ekranda görünən kod istifadə edilə bilər. Əgər siz kodu daxil edirsiniz, amma sistem sizə yanlış olduğunu bildirir, bu sizin mobil qurğunuzda vaxtın düzgün ayarlanmadığını göstərir. Bu problemi Google Authenticator-un «Настройки» bölməsinə daxil olaraq asanlıqla aradan qaldırmaq olar:




«Коррекция времени для кодов» funksiyasını seçin:




Və «Синхронизировать» sıxın:




Bu proses bir neçə saniyə çəkir və bundan sonra **myAccess üçün Google Authenticator-u** rahat istifadə edə bilərsiniz. «Коррекция времени для кодов» funksiyası ilə bu problem aradan qalxmazsa, bu halda mobil qurğunuzun "Parametrlər" bölməsindən vaxtın avtomatik dəyişdirilməsini təmin etməlisiniz.